**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**SƏRƏNCAMI**

**№ 85** **"18" 04 2016-cı il**

**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Binəqədi rayon bölməsinə dövlət qayğısının artırılması haqqında**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında" 31 yanvar 2004-cü il tarixli 70 saylı sərəncamının həyata keçirilməsi istiqamətində aparılan işləri gücləndirmək məqsədilə Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamənin 5.1.4-cü və 6.8-cı bəndlərinə əsasən

**Qərara alıram**

1. Rayon ərazisində fəaliyyət göstərən idarə,müəssisə, təşkilatların rəhbərlərinə tövsiyə edilsin ki, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Binəqədi rayon bölməsinin sosial, tibbi-sağlamlıq və xeyriyyəçilik proqramlarının həyata keçirilməsinə köməklik etsinlər.
2. Rayonun səhiyyə müəssisələri Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Binəqədi rayon bölməsinin müraciətlərinə əsasən aztəminatlı, tənha, imkansız təbəqələrdən olan vətəndaşlara tibbi xidmətin göstərilməsini təşkil etsinlər.
3. Sərəncamın sürəti rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə, təşkilatlara təqdim edilsin.
4. Sərəncamın yerinə yetirilməsinə nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılova həvalə edilsin.

**Xaləddin İsgəndərov**

№90

**ƏSLİ İLƏ DÜZDÜR.**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Elnur İmanov**